# Qloballaşma dövründə milli-mənəvi dəyərlərin qorunması və təbliği

**Xalqımızın əsrlər boyu yaratdığı adət və ənənələr dövlət səviyyəsində qayğı ilə əhatə olunduqca hər bir vətəndaşın mənəvi irsə, mədəni köklərə bağlılığı daha da artır. Mədəniyyət işçiləri isə bu qayğıdan istifadə edərək adət-ənənələrimizin, milli yaradıcılıq təcrübəmizin inkişafına əsaslı zəmin yaradırlar.**

İndiki mərhələdə mədəniyyət müəssisələri dini bayramlarımızın təntənəli şəkildə qeyd· olunması üçün də konkret proqramlar hazırlayır, həmin bayramların ictimai, mədəni əhəmiyyətini artırmaqdan ötrü bədii-emosional vasitələrdən istifadə edirlər.

"Qurban", "Ramazan" və "Novruz" bayramlarında dini və ictimai təşkilatlarla əlaqələr genişləndirilir, onların arzu və istəklərinə uyğun olaraq ssenarilər və həmin ssenarilərə əsasən isə bədii nümunələr hazırlanır. Təcrübə göstərir ki, milli adət-ənənələrin öyrənilməsi və onların mənəvi dəyərlər sistemindəki rolunun tədqiqi həmişə aktual olmuşdur.

Çünki milli adət-ənənələr tarixin bütün mərhələlərində ictimai, mədəni tərəqqinin əsas göstəricisi kimi nəzərə çarpmışdır.

Cəmiyyət inkişaf etdikcə adət və ənənələr də ayrı-ayrı quruluşların ictimai-siyasi xüsusiyyətlərinə bu və ya digər formada inteqrasiya etmişdir.

Buna görə də hər bir ictimai-siyasi quruluş həm bütövlükdə adət və ənənələrə, həm də onun mənəvi-bədii dəyərlərinə öz möhürünü vurmuşdur.

XXI əsrdə sürətli inkişaf yoluna qədəm qoymuş müstəqil Azərbaycan Respublikası qazandığı istiqlalı qoruyub saxlamaq, demokratik dövlət qurmaq, fikir plüralizmi və azad bazar iqtisadiyyatına malik olan vətəndaş cəmiyyəti yaratmaq uğrunda inamla mübarizə aparmaqdadır. Müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasətinin təməl prinsiplərinin, bu siyasətin tarixi, ictimai-siyasi, sosial, mədəni, elmi və kulturoloji əsaslarının araşdırılmasına keçməzdən əvvəl, təbii ki, həm mədəniyyət siyasəti, həm də ümumiyyətlə, mədəniyyət anlayışının mahiyyətinə açıqlıq gətirilməsinə və mədəniyyət siyasətinin həyata keçirilməsi prosesində mənəvi dəyərlərin çəkisinin müəyyənləşdirilməsinə ehtiyac duyulur.

Çünki XXI əsr bütün dünya dövlətləri və millətləri arasında iqtisadi, siyasi-mədəni əlaqələrin artması, son nəticədə qloballaşma ilə xarakterizə olunmaqla yanaşı, eyni zamanda ayrı-ayrı xalqların etnik-mənəvi köklərinə yenidən dönüşü ilə də xarakterikdir.

İndi planetin bütün irili-xırdalı dövlət və millətləri könüllü və ya könülsüz, ixtiyari və ya qeyri-ixtiyari son nəticədə böyük qloballaşmaya aparıb çıxaran nəhəng inteqrasiya magistralına qoşulmaqdadır.

Qloballaşma kontekstində etnik-milli mövcudluğun siyasi, iqtisadi, kültürəl, mənəvi suverenliyi ilə bağlı milli konsepsiya və konseptual ideyada yekcins deyil.

Bu gün qloballaşmaya ümumi mənada dünyalaşma və ya qlobal inteqrasiya kimi tərif verilir: Qloballaşma ölkələr arasındakı iqtisadi, sosial və siyasi əlaqələrin inkişafı, fərqli görünən, lakin bir-biri ilə bağlı məsələləri birləşdirən bir anlayışdır (1).

Başqa bir ifadə ilə qloballaşma ölkələrin sahib olduqları maddi və mənəvi dəyərlərin çərçivəsində əmələ gəlmiş münasibətlərin, millini hüdudlaşdıraraq dünya səviyyəsində yayılması və fərqliliklərin bütünlük və uyğunlaşma adı altında birləşməsidir. Bu o deməkdir ki, həyatımızın elə bir sferası yoxdur ki, qloballaşmanın təsirinə məruz qalmasın. Son

dövrlər dünya iqtisadiyyatında qloballaşma prosesi daha sürətli və gözədəyəndir.

Qloballaşan dünyada dövlətin sabaha hansı siyasətlə getməsi, hansı maraqları güdməsi bir mənalı qarşılanmır. Çünki qloballaşma prosesləri milli mədəniyyətin insanlarını məhdudlaşdıraraq bilavasitə mədəni siyasətə təsir göstərir.

Bəşəriyyət özünün salamat qalması, planetimizin qorunub saxlanılması məqsədilə iqtisadi, siyasi, milli-etnik problemlərin birlikdə həll edilməsinin zəruriliyini artıq dərindən dərk edir.

Bir tərəfdən Respublikamızda milli və bəşəri dəyərlərin sintezini, dünya təcrübəsinə inteqrasiyasını təmin edən mühitin formalaşdırılması yönündə həyata keçirilən islahatlar dünyanın sosial, mədəni, iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri səviyyəsinə çatmağa şərait yaradır.

Digər tərəfdən sosial, mədəni, iqtisadi tərəqqiyə xidmət edən bu prosesdə qarşıya çıxan problemlər isə bilavasitə mədəniyyət sahəsində bəşər tarixinin, dünyanın inkişaf təcrübəsinin öyrədilməsini, kompleks təlim-tərbiyə sisteminin qurulmasını, yaradıcılıq əlaqələrinin genişləndirilməsini zərurətə çevirir.

Şübhəsiz ki, inteqrasiya prosesinin açılmaz olduğu bir dövrdə milli-mənəvi və əxlaqi-tərbiyəvi dəyərlərimizin qorunmasına qayğı daha da artırılmalıdır. Bu zərurət cəmiyyət həyatının bütün sahələrini-iqtisadiyyatı, siyasəti və mədəniyyəti əhatə edən qloballaşmanın ziddiyyətli gedişatından, onun görünən və görünməyən tərəfinin mövcudluğundan doğur.

Şübhəsiz ki, Azərbaycan Respublikası dünya birliyinin üzvü kimi bu inteqrasiya proseslərindən təcrid oluna bilməz. Deməli, bu gün kənar təsirlər qarşısında milli-mənəvi dəyərlərimizin mühafizəsi probleminə daha ciddi fikir verilməlidir. Ona görə də biz bu dəyərləri acımalardan qorumalı, milli mədəniyyətimizi millətin qloballaşmanın mənfi təzahürlərindən özünü müdafiə vasitəsinə çevirməliyik.

Gənc nəslin arasında kulturoloji maarifləndirmə işlərini gücləndirməli, mədəniyyət sahəsində özünü tənzimləmə metodları tətbiq edilməli, prioritetlər aydınlaşdırılmalı və maliyyələşdirilməlidir. Yalnız birgə səmərəli fəaliyyət nəticəsində milli mədəniyyətin özünəməxsusluğunu, milli-mənəvi dəyərləri qorumaq, mühafizə etmək mümkündür.

Azərbaycan mədəniyyətinin xaricdə təbliği ilə bağlı tədbirlərin keçirilməsinə, kitab nəşrinə, müxtəlif layihələr üçün vəsait ayırılmasına və s. xidmət edən maddələri daxil etmək olar. Bu gün büdcə xərclərinin əsas məqsədi mədəniyyət müəssisələrini qoruyub saxlamaq və onların işçilərinin sosial müdafiəsini təmin etməkdir. Eyni zamanda, üçüncü qrup üzrə xərclər təxminən 10%-ə bərabərdir və hətta bəzən bundan da azdır. Mədəniyyətin əsas funksiyalarına nəzər salarkən, aydın olur ki, faktiki olaraq yaradıcılığa deyil, qoruyub saxlamaq funksiyasına üstünlük verilir. Axı məhz bu xərc bloku mədəni dəyərlərin qorunub saxlanılması və zənginləşdirilməsi məqsədlərinə xidmət edir.

Mədəniyyətin bu qədər cüzi ölçüdə maliyyələşdirilməsi halında incəsənət əsərlərinin satın alınması, yeni bədii əsərlər üçün sifariş verilməsi, müəlliflərin stimullaşdırılması və kitabxana fondlarının zənginləşdirilməsinin davam etdirilməsi qaçılmaz olaraq milli mədəniyyətin ümumi vəziyyətinin pisləşməsinə gətirib çıxaracaqdır. Ən mühüm fakt əmək haqqının aşağı səviyyədə olması və bununla bağlı mütəxəssislərin iş yerlərini tərk etmələridir.

Xalqımızın vətənpərvər, qeyrətli ziyalıları həmişə doğma dilimizə, milli-mənəvi dəyərlərimizə edilən təcavüzə qarşı barışmaz olublar. Tabeliyində olan ayrı-ayrı xalqları assimilyasiyaya uğratmaq, öz içində əritmək, bir millət kimi yox etmək üçün Rusiya imperiyasının mürtəce dil siyasəti onları ciddi narahat edirdi. Ona görə də bu böyük fəlakətlərdən xilas olmağın çarəsini xalqları maarifləndirməkdə, onlara öz yaxşı-yamanını tanıtmaqda görürdülər.

Həsən bəy Zərdabi yazırdı: "Vay elmsiz, qeyri tayfalara qarışanların gününə ki, ...dayaqsız uyuq kimi olduqlarından bir bərk küləyə bənddirlər ki, onları aparıb qeyri-tayfalara qarışdırsın" (2, s. 2). Sovet hakimiyyəti illərində daha betərinə rast gəlinirdi. "Öz qınından çıxıb qınını bəyənməyən"lər rəsmi görüşlərdə, ailəsində, dost-qohumları arasında rus dilində danışar, doğma dilinə, adət-ənənəsinə, mədəni irsinə, tarixi keçmişinə həqarətlə yanaşardılar.

Görkəmli ictimai-siyasi xadim Məmməd Əmin Rəsulzadəyə görə "Milliyyətimdə ruhunu təşkil edən şey dildir... Bir milləti məhv edib aradan götürmək istəyən siyasətçilər öncə o millətin dilini yaddan çıxarmağa səy ediblər" (3, s. 7).

Millət fərdlərinin düşüncə və duyğularının ifadə vasitəsi olan "dil" həm də o millətin milli mənsubiyyətini, düşüncə tərzini, onu başqalarından fərqləndirən özünəməxsusluğunu müəyyən edən ictimai amildir. Deməli, kamil ana dili olmadan nə ana vətəndən, nə də millətdən danışmaq olmaz. Buna görə də ana dilinin milli-mənəvi dəyərlər sistemində qorunması və qayğı altına alınması vacib olan təməl dəyərdir. Əslində, dil ünsiyyət vasitəsi olmaqdan daha çox milli varlığın göstəricisidir.

Telekanalların dilimizə etinasızlığı daha çox narahatlıq doğurur. Çünki telekanal da heç bir başqa sahə ilə müqayisə edilməyəcək qədər kütləvidir. Kütləvi olmaqla yanaşı, böyük təsir gücünə malikdir. Teleşou aparıcılarının baş-ayaq cümlələri, əcaib intonasiyaları, dil mədəniyyətimizin estetikasına zidd danışıq tərzləri, leksikaları narahatlıq yaratmaya bilməz. Hətta rəsmi xəbər oxucularının nə demək istədiklərini bəzən çətinliklə başa düşmək olur.

Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra milli-mənəvi dəyərlərə çox önəm verdi. O buyururdu ki, "müsəlmanlar öz imanlarını ürəklərdə qoruyub saxlayıblar". Hər ailədə, hər evdə dini dəyərlər qorunurdu və insanlar o qanunlarla yaşayırdı. SSRİ-nin yeni ateist siyasətinə baxmayaraq Heydər Əliyev buyurmuşdu ki, İslam Məhəmməd (s) peyğəmbərin mövludu bayramını qeyd etmək islama pərəstiş edən Azərbaycan xalqı və bütün insanlar üçün ən yüksək mənəvi qida mənbəyidir. Azərbaycanda doğma dilimiz hakim dildir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan dilini dərindən öyrənib dünyanın hər yerində qürur hissi ilə danışmağı tövsiyə etmişdir: " ...hansı qitədə, hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı o ölkənin dilini də mənimsəsin, o ölkənin adət-ənənələrindən istifadə etsin, o ölkənin şəraitinə uyğunlaşsın, amma Azərbaycan dilini yaşatsın və inkişaf etdirsin" (2, s. 4).

Dil yalnız ünsiyyət vasitəsi deyil, o həm də millətin ruhudur, özünü qoruma, təsdiq etdirmə vasitəsidir. Dil həm də düşüncədir, təfəkkürdür, insanların bütün yaratdıqlarının tarixləşməsi vasitəsidir. Hər bir şəxsin və hər bir millətin milli təfəkkürünün sərhədləri o millətə mənsub olan ana dilinin sərhədləri ilə müəyyən edilir.

Dilin ifadə imkanları nə qədər geniş, rəngarəng olsa, o dildə ifadə edilən fikir də, duyğu da, məhəbbət də, nifrət də bir o qədər güclü olar, əhatəli olar, rəngarəng olar. Bütün bunlara görə ana dilinə, onun qorunmasına, inkişaf etdirilməsinə olan qayğı həmin dildə danışan millətin böyüklüyünün, elmi təfəkkürünün, mənəvi-əxlaqi dəyərlərinin kamil olmasına göstərilən qayğıdır.

Müstəqil Azərbaycanı gələcəkdə də yaşadacaq və möhkəmləndirəcək gənc nəslin formalaşdırılması üçün ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlişindən sonra ciddi tədbirlər həyata keçirilməyə başlandı.

Ulu öndərin dövlət quruculuğu strategiyasının əsas istiqamətlərindən biri də məhz gənclər siyasəti, milli dəyərlərə sadiq, vətənpərvər gənc nəslin yetişdirilməsi qarşıya qoyulan prioritet vəzifələrdən olub. Möhtərəm prezidentimiz İlham Əliyev gənclərin inkişafına diqqəti daha da artırdı, bu sahədə normativ-hüquqi baza getdikcə təkmilləşdirildi.

"Təəssüflər olsun ki, son zamanlar bazar iqtisadiyyatı mühitinin efir məkanına daxil olması həqiqi Azərbaycan mədəniyyəti ilə mədəniyyət adına təqdim olunanları biri-birindən ayıran sədləri itirib. Sözün əsl mənasında mədəniyyətimizin adı altında aparılan təbliğat müəyyən mənada bəzi dövlət strukturlarının günahı üzündən tarixboyu mədəniyyət xadimlərimizin bizim üçün qoyub getdiyi mədəniyyət salnaməsini az qala yeni mədəniyyətə ləkə gətirən nümunələrlə qarışdıraraq onların saflığına ciddi təsir göstərirdi" (5, s. 4).

**Ümummilli lider Heydər Əliyev ürək ağrısı ilə söyləyirdi ki, millətin mədəniyyətini qorumaq onun təkcə mədəniyyət işçilərinin, ziyalılarının işi deyil, eyni zamanda dövlət rəsmilərinin, bütün dövlət strukturlarının vəzifəsidir.**

● **Elxan ABDULLABƏYOV,**
***Mədəniyyət və Turizm Nazirliyi Mədəniyyətşünaslıq üzrə elmi-metodiki mərkəzin əməkdaşı***

## Ədəbiyyat

1. N.Abbasov. Mədəniyyət siyasəti və mənəvi dəyərlər. Bakı - 2009.
2. T.Əhmədov. Baş redaktordan. "Fiyuzat" jurnalı - 2009, №5.
3. A.Qurbanov. Ana dili. "Fiyuzat" jurnalı - 2009, №5.
4. Y.Vəliyev. Milli adət və ənənələr mənəvi əxlaqi dəyərlər kimi. "Mədəni-maarif" jurnalı - 2007, №4.
5. Ə.Həsənov. Mədəniyyət millətin vizit kartıdır. "Vətəndaş cəmiyyəti" - 2011, №2.
6. Адель Абдулла аль-Фалах. Гейдар Алиев и национальные, духовные ценности. Баку. "Гисмет" - 2007.